# Bilirsinizmi qeybət nədir?" Sahabələr: "Allah və Rəsulu ən doğrusunu bilir!"- dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "(Din) qardaşını onun xoşuna gəlmədiyi bir vəsflə xatırlamaqdır

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Bilirsinizmi qeybət nədir?" Sahabələr: "Allah və Rəsulu ən doğrusunu bilir!"- dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "(Din) qardaşını onun xoşuna gəlmədiyi bir vəsflə xatırlamaqdır." Soruşdular: Bəs əgər qardaşımda söylədiyim vəsf olarsa? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Dediyin vəsf o kəsdə olarsa, sən onun qeybətini etmiş olarsan, əgər bu olmazsa, ona böhtan atmış olarsan."
[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) haram olan qeybətin həqiqətini bəyan edərək buyurur ki, müsəlman qardaşını onun arxasınca sevmədiyi bir vəsflə xatırlamaqdır. Bu vəsf istər yaradılış sifətləri olsun, istər əxlaqi xüsusiyyətləri olsun, fərqi yoxdur. Məsələn, kor, fırıldaqçı, yalançı kimi xoşa gəlməz sifətlər, hətta sahibində olsa belə bu qeybətdir. Lakin onun haqqında söylədiyin (sevmədiyi) sifət onda olmazsa, bu qeybətdən daha ağır olur, bu da artıq böhtandır, yəni- insanda olmayan xüsusiyyəti ona iftira olaraq aid etməkdir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee